

Milli azadlıqdan
şirin nemət yoxdur!

# İƏT üzvü dövlətlər arasında əməkdaşlığın dərinləşdirilməsinə töhfə verməyə hazırıq



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
13 mart 2025-ci il, cümə axşamı
№ 046 (6874)
Qiyməti 60 qəpik

# Migel Anxel Moratinos Prezident İlham Əliyevə təşəkkür etdi

## Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansına vacib dəstəyi...



Bax səh. 2

# İnflyasiya riski gözlənilmir

Bax səh. 4

# Azərbaycan - Şimali Makedoniya: İkitərəfli siyasi dialoq dinamik xarakter alır



Bax səh. 3

## Davamlı sosial dəstək

Azərbaycanda hərbçilərə dövlətin əhatəli dəstək tədbirləri davam etməkdədir. Bu günlərdə Azərbaycan Ordusunun bir neçə hərbi qulluqçusunun mənzillə təmin edilməsi onların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində yürüdülən siyasətin tərkib hissəsi kimi dəyərləndirilə bilər. Belə ki, hərbçilərin mənzil təminatı üzrə yaradılmış Komissiyanın martın 11-də keçirilən iclasında Bakı və Sumqayıt şəhərlərində alınmış tam təmirli 131 mənzil hərbi qulluqçulara verilib. Beləliklə, dövlət vəsaiti hesabına mənzil alan hərbçilərin sayı 4167 nəfərə çatıb.
Qeyd edək ki, hərbçilərin mənzillə...

Bax səh. 3

## Hər kəs əməlinin məsuliyyətini daşımalıdır

Azərbaycan dövlətinə və xalqına qarşı cinayət törətmiş bir qrup erməni əsilli şəxslər ədalət mühakiməsi qarşısına çıxarılıb. Bir müddətdir ki, Bakıda onların məhkəməsi davam edir və məhkəmə prosesi şəffaf keçirilir. Nə qədər absurd olsa da, həm Ermənistan, həm də xaricdəki erməni lobbisi bu məsələ ilə bağlı dezinformasiya yayır, konkret cinayətlərdə ittiham olunan şəxslərin mühakimədən yayıdırılması üçün fərqli yollara əl atırlar. Məqsəd isə Azərbaycana beynəlxalq təzyiq göstərmək və bəlkə bu təzyiq yolu ilə...

Bax səh. 4

## Ekologiyanın qorunması üçün...

Bütün dünyada aktual olan iqlim dəyişmələri ilə bağlı müzakirələr ölkəmiz üçün də mühüm prioritet təşkil edir. Bu istiqamətdə addımlar atılır, qərarlar qəbul olunur. Qlobal istiləşmə və güclü sənaye inkişafı fonunda iqlim dəyişmələrindən bütün ölkələr təsirlənir. Bundan başqa, XXI əsrdə ekoloji tarazlığı qoruyub saxlamaq, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosferi çirklənməkdən mühafizə etmək ümumbəşəri problemə çevrilib. Bir tərəfdən dünya demoqrafik artımla "qol-boyun"dur, digər...

Bax səh. 5

## QƏRBİ AZƏRBAYCAN MƏTBUATI

1914-cü il fevral ayının 22-də İrəvanın tanınmış ziyalıları Mirzə Cabbar Əsgərzadənin redaktorluğu, Mirfətulla Mirfətullayevin naşirliyi ilə İrəvanda Azərbaycan dilində ilk mətbuat orqanı olan "Lək-lək"in birinci nömrəsi işıq üzü görür.

Bu məcmuə XX əsrin ikinci onilliyində Qərbi Azərbaycanda - İrəvanda 1914-cü il fevral ayının 22-dən həmin ilin 30 iyununadək nəşr olunmuş, cəmi 12 nömrəsi işıq üzü görmüş "Lək-lək" əslində senzura sənədlərində "Leylək" jurnalının ərəb qrafikalı əlifbadan...

Bax səh. 5

# Ciddədən ciddi mesajlar...



Bax səh. 7

# Makronun niyyəti...



Bax səh. 7

# İƏT üzvü dövlətlər arasında əməkdaşlığın dərinləşdirilməsinə töhfə verməyə hazırıq

## Prezident İlham Əliyev İƏT-in Baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd Məcid Xanı qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu il Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının sammitinə ev sahibliyi edəcəyini deyərək, Əsəd Məcid Xanın ölkəmizə səfərinin Zirvə toplantısına hazırlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını qeyd edib. Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvü olduğunu vurğulayan Prezident İlham Əliyev bildirib ki, ölkəmiz təşkilat çərçivəsində üzv dövlətlər arasında əməkdaşlığın dərinləşdirilməsinə və gündəlikdə duran məsələlərin irəli aparılmasına öz töhfəsini verməyə hazırdır.

Əsəd Məcid Xan da öz növbəsində Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvü olduğunu deyib və ölkəmizin təşkilatın alt strukturlarına ev sahibliyi etməsini, gündəlikdə duran məsələlərin həyata keçirilməsi işinə daim dəstək verməsini məmnunluqla vurğulayıb. Qonaq təşkilata üzv dövlətlərin tarixi, mədəni və coğrafi yaxınlığı, din və digər sahələrdə ortaq dəyərləri, bənzərlikləri bölüşdüyünü deyərək, təşkilat çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük imkanların və perspektivlərin olduğunu qeyd edib.

Baş katib Əsəd Məcid Xan ölkəmizin beynəlxalq tədbirlərin keçirilməsi sahəsində zəngin təcrübəyə malik olduğunu, xüsusilə COP29-u uğurla keçirdiyini vurğuladı və İqtisadi Əməkdaşlıq Təşkilatının sammitinin də Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil ediləcəyinə əminliyini bildirib.

Qonaq səfər çərçivəsində XII Qlobal Bakı Forumunda iştirak edəcəyini məmnunluqla vurğuladı və bu forumun dünya miqyasında qlobal məsələlərin müzakirəsi baxımından vacib platformalardan biri olduğunu qeyd edib.

Söhbət zamanı Azərbaycan ilə İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Milli səviyyədə dayanıqlı inkişaf məqsədimiz müəyyənləşib

## Prezident İlham Əliyev BMT-nin Cenevrədəki ofisinin baş direktorunu qəbul edib



Prezident İlham Əliyev martın 12-də BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovayanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Tatyana Valovaya COP29-un ölkəmizdə uğurlu təşkilinə və iqlim gündəliyi ilə əlaqədar qəbul olunmuş vacib qərarlara görə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev BMT-nin ixtisaslaşmış aidiyyəti təşkilatlarının, o cümlədən Cenevrədəki ofisinin rəhbərliyinin də COP29-da fəal təmsil olunmasını və Azərbaycanla əməkdaşlığını məmnunluqla vurğulayıb.

Görüşdə Azərbaycan və BMT, həmçinin BMT-nin müxtəlif təşkilatları arasında əməkdaşlıqdan məmnunluq ifadə edilib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi tədbirlərdə BMT-nin Cenevrədəki ofisinin rəhbərliyinin və ixtisaslaşmış strukturlarının nümayəndələrinin iştirakının vacibliyi qeyd olunub.

Söhbət zamanı BMT-nin müəyyənləşdirdiyi Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycanın bu Məqsədlərin həyata keçirilməsi istiqamətində sosial, iqtisadi və digər sahələrdə yaxşı nəticələr əldə etdiyi vurğulanıb. Həmçinin ölkəmizin milli səviyyədə də dayanıqlı inkişaf məqsədini müəyyənləşdirdiyi bildirilib və bunun da nümunəvi xarakter daşıdığı qeyd olunub.

Görüşdə 2026-cı ildə Azərbaycanın UN-Habitat ilə birlikdə Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyi vurğulanıb, bu xüsusda birgə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Rosen Plevneliyev: Çətin anlarımızda Azərbaycan özünü etibarlı tərəfdaş kimi sübut etdi




Cənub-Şərqi Avropa üçün Azərbaycan mühüm tərəfdaşdır. Çətin anlarımızda Azərbaycan özünü etibarlı tərəfdaş kimi sübut etdi.

AZƏRTAC xəbər verir ki, bu sözləri Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev Bakı Qlobal Forumunun İdarə Heyətinin mətbuat konfransında söyləyib.

"Mənim ölkəm Bolqarıstana Rusiya qaz ixrac etməyi artıq dayandırıb. Azərbaycan bu çətin dövrdə bizim üçün etibarlı enerji təminatçısına çevrildi və bu, münasibətlərimizin yeni müstəviyə keçməsinə səbəb oldu", - deyə o qeyd edib.

Rosen Plevneliyev yeni layihələrin olduğunu da diqqətə çatdıraraq vurğulayıb: "Biz Çindən Avropaya Azərbaycan vasitəsilə daşımalar edirik. Bizim yeni layihəmizdə Rumıniya, Bolqarıstan, Macarıstan, Gürcüstan və digər ölkələr iştirak edəcək".

# İsmail Serageldin: Builki forum xüsusilə əhəmiyyətli olacaq...




Builki forum xüsusilə əhəmiyyətli olacaq, çünki dünya genişmiqyaslı dəyişikliklərlə üzləşib.

AZƏRTAC xəbər verir ki, bu sözləri Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Bakı Qlobal Forumunun İdarə Heyətinin mətbuat konfransında deyib.

O qeyd edib ki, forumda 400-ə yaxın iştirakçı, o cümlədən ən azı 50 fəaliyyətdə olan və sabiq prezident, Baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edəcəklər.

"XII Bakı Qlobal Forumu dünyanın aparıcı liderlərini, beynəlxalq təşkilatların nümayəndələrini və alimlərini açıq, məzmunlu diskussiyalar üçün bir araya gətirən mühüm hadisə olacaq", - deyə o bildirib.

İsmail Serageldin müzakirələrin açıq, səmimi, təcrübəyə və analitik nəticələrə yönəldilməsinin vacibliyini vurğulayıb.

# İqlim gündəliyi ilə əlaqədar çox vacib qərarlar Bakıda qəbul olundu...

## Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini və İdarə Heyətinin üzvlərini qəbul edib



Azərbaycan Prezidenti İlham Əliyev martın 12-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqlar, ilk növbədə, COP29-un Azərbaycanda yüksək səviyyədə təşkil olunması və uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıblar. Onlar iqlim gündəliyi və iqlim maliyyələşdirilməsi ilə əlaqədar çox vacib qərarların məhz Bakıda qəbul olunduğunu vurğulayıblar.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvlərinə COP29-da fəal iştirak etdiklərinə görə təşəkkürünü bildirib. COP29 zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən 16-dan artıq müxtəlif panelin təşkil edildiyini, həmçinin Mərkəzin ayrıca pavilyonunun fəaliyyət göstərdiyini xatırladan dövlətimizin başçısı bütün bunların COP gündəliyinin irəli aparılması işinə töhfə verdiyini deyib.

Vayra Vike-Freyberqa və İsmail Serageldin qeyd ediblər ki, Mərkəz böyük Azərbaycan şairi Nizaminin məhz humanizm prinsiplərinə, ideyalarına və fəlsəfəsinə əsaslanaraq, dünya miqyasında humanizmin təşviqinə öz töhfəsini verir.

Dövlətimizin başçısı vurğulayıb ki, Mərkəzin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin fəlsəfəsi əsasında dünya miqyasında həyata keçirdiyi fəaliyyəti təqdir olunur. Bu təsisatın beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi baxımından aktiv şəkildə fəaliyyət göstərdiyini, onların həlli yollarının tapılmasına töhfəsini verdiyini deyən Prezident İlham Əliyev bu xüsusda XII Qlobal Bakı Forumunun əhəmiyyətini qeyd edib və bu tədbirin yeni dünya düzəninin formalaşdırılması ilə bağlı vacib mövzulara həsr olunduğunu vurğulayıb.

Forumda dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadimin iştirak edəcəyini bildirən İsmail Serageldin tədbirdə qlobal aktual problemlərə, bu xüsusda çoxtərəfli diplomatiya və çoxqütblü dünya, BMT-nin gələcək üçün paktı, yeni dünya düzəninin formalaşdırılması, orta güclər və onların yeni dünya düzənində rolu, postmünaqişə dövründə bərpa-quruculuq işləri və bu kimi digər vacib mövzulara həsr edilən panel və müzakirələrin keçiriləcəyini bildirib.

Prezident İlham Əliyev 2026-cı ildə Azərbaycanın BMT-nin Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini deyərək, bu çərçivədə də ölkəmizlə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və BMT institutları arasında əməkdaşlığın əhəmiyyətinə toxunub.

Dövlətimizin başçısı Mərkəzin İdarə Heyətinin üzvlərinin müxtəlif suallarını cavablandırıb. Görüş müzakirələrlə davam edib.

# Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansına vacib dəstəyi...

## Migel Anxel Moratinos Prezident İlham Əliyevə təşəkkür etdi



Prezident İlham Əliyev martın 12-də BMT Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Migel Anxel Moratinos, ilk növbədə, BMT-nin Sivilizasiyalar Alyansının fəaliyyətinə göstərdiyi daimi dəstəyə, onun gündəliyində duran məqsəd və məramların beynəlxalq səviyyədə irəli aparılması işinə verdiyi töhfələrə görə dövlətimizin başçısına və Azərbaycan Respublikasına təşəkkürünü bildirib.

Ölkəmizlə BMT-nin Sivilizasiyalar Alyansı arasında əməkdaşlıqdan məmnunluğunu ifadə edən qonaq Azərbaycan Respublikasının Alyans tərəfindən keçirilən tədbirlərdə fəal iştirakına toxunub, ölkəmizin Alyansa könüllü maliyyə töhfələrinin qurumun fəaliyyətinə vacib dəstək olduğunu vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığını yüksək qiymətləndirdiyini deyib, təşkilatın fəaliyyətini bundan sonra da dəstəkləyəcəyini bildirib.

Alyansın gündəliyində duran məsələlərin Azərbaycan Respublikasının siyasəti ilə tam uyğunluq təşkil etdiyini vurğulayan Prezident İlham Əliyev ölkəmizin dünyada sivilizasiyalar və mədəniyyətlər arasında dialoqu yaxından təşviq etdiyini vurğulayıb, bu baxımdan Azərbaycanın və BMT-nin Sivilizasiyalar Alyansının Bakıda keçirdikləri birgə tədbirlərin əhəmiyyətinə toxunub.

Söhbət zamanı islamofobiyanın bu gün dünyanı narahat edən vacib mövzulardan biri olduğu qeyd edilərək, bu xüsusda ölkəmizlə Alyans arasında əməkdaşlıq və birgə tədbirlərin keçirilməsi məsələləri ilə bağlı müzakirələr aparılıb.

Görüşdə Azərbaycan ilə BMT, o cümlədən BMT-nin müxtəlif təşkilatları arasında əməkdaşlıqdan məmnunluq ifadə olunub.

# Latviyanın sabiq Prezidenti: XII Bakı Qlobal Forumu iştirakçıların Azərbaycanı tanıması üçün gözəl fürsətdir



"Bakıda keçiriləcək XII Bakı Qlobal Forumunda 400-ə yaxın iştirakçı gözlənilir və bu, onların Azərbaycanı tanıması üçün gözəl fürsətdir".

AZƏRTAC xəbər verir ki, bunu Latviyanın sabiq Prezidenti (1999-2007), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Frayberqa XII Bakı Qlobal Forumunun İdarə Heyətinin mətbuat konfransında deyib.

O qeyd edib ki, ölkələr arasındakı münaqişələr mülki infrastrukturun dağıdılmasına, insanların qətlə yetirilməsinə səbəb olur: "Forumda bütün bu məsələlərin müzakirə olunacağına və həll yolları axtarılacağına inanıram.

Keçən ilin payızında dünyanın diqqətini özünə cəlb edən COP29-da aparılan müzakirələrin problemlərin həllinə necə müsbət təsir göstərə biləcəyini gördük. Beləliklə, forum dünyanın müxtəlif yerlərindən olan iştirakçıların çox geniş şəkildə müzakirələr apara biləcəyi platforma olacaq".

# Azərbaycan - Şimali Makedoniya: İkitərəfli siyasi dialoq dinamik xarakter alır

**Milli maraqlar üzərində qurulan və ardıcıllıqla davam etdirilən multiregional xarici siyasət kursu Azərbaycana bütün dünyada böyük nüfuz qazandırıb. Bu gün respublikamız beynəlxalq miqyasda müstəqillik, suverenlik prinsiplərindən çıxış edən, heç kimdən asılı olmayan, eyni zamanda, yeni çağırışlar qarşısında qlobal həmrəyliyin möhkəmlənməsinə sanballı töhfələr verən ləyaqətli dövlət kimi tanınır və hörmət bəslənilir. Ölkəmizlə tərəfdaşlıq münasibətlərini genişləndirməyə çalışan dövlətlərin sayının getdikcə artması bunun əyani təzahürüdür.**

**Belə dövlətlərdən biri də Şimali Makedoniyadır. Bu günlərdə Şimali Makedoniyanın Prezidenti Qordana Silyanovska-Davkova respublikamıza rəsmi səfərə gəlib. Səfər çərçivəsində ikitərəfli və çoxtərəfli formatlarda bir sıra görüşlər keçirilib, aktual müzakirələr aparılıb və prezidentlər mətbuata bəyanatlar veriblər. "Biz ikitərəfli münasibətlərimizin inkişafı üçün fəal iş aparırıq. Şadam ki, ölkələrimiz arasında siyasi dialoq dinamik xarakter alır. Bizim xanım Prezidentlə ikinci görüşümüz qısa müddət ərzində bunun əyani sübutudur", - deyə Prezident İlham Əliyev mətbuata verdiyi bəyanatında vurğulayıb.**

## Azərbaycanın xarici siyasət prioritetlərindən biri - Balkan yarımadası dövlətləri ilə əməkdaşlıq əlaqələrinin genişlənməsi

Azərbaycan qısa müstəqillik tarixində həm İslam coğrafiyasında, həm də Avropa İttifaqı (Aİ) məkanında yerləşən ölkələrlə sıx əməkdaşlıq əlaqələri qurmağa nail olub. O cümlədən bu gün Balkan yarımadası dövlətləri ilə əməkdaşlıq əlaqələrinin genişlənməsi respublikamızın xarici siyasət kursunun prioritet istiqamətlərindən biridir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Qərbi Avropa dövlətləri ilə sərhəddə yerləşən Balkan ölkələri Şərqlə ticarət, nəqliyyat və tranzit əlaqələrin qurulmasında mühüm rol oynayır.



Rusiya ilə Ukrayna arasında davam edən müharibə Avropanın enerji təhlükəsizliyinə ciddi təhdid yaradıb. Hərbi əməliyyatlar başlayandan bəri Avropanın enerji bazarında təbii qazın qiyməti artıb. Belə ki, ötən ilin dekabrında Avropa birjalarında təbii qazın qiyməti 30 faiz artaraq 1000 kubmetr üçün 560 dollardan 700 dollara yüksəlib. Bu vəziyyət Balkan dövlətlərini də düşündürür və onları enerji təhlükəsizliyinin təmin olunması üçün yollar axtarmağa vadar edir.



Belə bir vəziyyətdə zəngin resurslara malik olan Azərbaycan qoca qitə üçün bir növ xilaskara çevrilib. Ölkəmiz ədalətli enerji siyasəti həyata keçirir. Azərbaycanın birmənalı mövqeyinə diqqət çəkən Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, enerji amilindən siyasi təzyiq vasitəsi kimi istifadə olunması yolverilməzdir. Bunun nəticəsidir ki, ayrı-ayrı Avropa dövlətləri respublikamızla enerji əməkdaşlığını genişləndirməyə çalışırlar. Azərbaycan 2021-ci ilin iyulunda Aİ ilə imzaladığı müqaviləyə əsasən, 2027-ci ilədək Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya təbii qaz ixracının həcmini 30 milyard kubmetrə çatdıracaq. Bu gün Yunanıstanın təbii qaza olan tələbatının 18 faizini Azərbaycan ödəyir. Cari ildə Yunanıstana 1,2 milyard kubmetr təbii qazın ixrac edilməsi nəzərdə tutulub. Energetika Nazirliyinin açıqlamasına əsasən, 2028-ci ildə "Ümid" və "Abşeron" yataqlarından böyük həcmdə təbii qazın hasil edilərək dünya bazarına çıxarılması gözlənilir. Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatı 2,6 trilyon kubmetrdir ki, bu da uzun müddətdə qaz ixracının artırılmasına imkan verir.

Bu gün Avropanın 4 ölkəsində - Macarıstan, Slovakiya, Çexiya, Avstriyada ciddi enerji problemi gözlənilir. Təsadüfi deyil ki, bu dövlətlərin başçıları Azərbaycan ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduqlarını ifadə edirlər. Azərbaycan neft və təbii qaz ilə zəngin ölkə olduğu üçün Qərb dövlətlərinin bazarlarında təmsilçiliyini daha da genişləndirmək niyyətindədir. Bu baxımdan 2023-cü ildə Prezident İlham Əliyevin Bosniya və Herseqovinaya, həmin ilin dekabrında Serbiyaya rəsmi səfərləri, cari ilin yanvarında Davos İqtisadi Forumunda Xorvatiyanın Baş naziri ilə görüşü qarşılıqlı əməkdaşlığın inkişafı üçün böyük əsaslar yaradıb.

Azərbaycan Balkanlarda yerləşən Şimali Makedoniya üçün də cəlbedici ölkədir. Bu dövlət ilə də enerji əməkdaşlığının böyük perspektivləri var. Ölkəmizin bir çox qlobal neft və qaz layihələri Şimali Makedoniyanın maraq dairəsindədir. Həmçinin Cənub Qaz Dəhlizi, Trans Anadolu Qaz kəməri (TANAP), Trans Adriatik Qaz kəməri (TAP) layihələrində Azərbaycanın əməkdaşlıq etdiyi ölkələrin bir çoxunun da Şimali Makedoniya ilə yaxın əlaqələri mövcuddur. Bakı ilə Skopye arasında əməkdaşlıq ölkəmizin Qərbdə xüsusilə daha da aktuallaşan enerji təhlükəsizliyi məsələsində güclənən mövqeyini və rolunu bir daha ifadə etmiş olur. Respublikamızın Avropa və ölkəsi üçün əhəmiyyətinin artdığını bildirən Prezident Qordana Silyanovska-Davkova "Azərbaycan nəinki beynəlxalq geosiyasi səhnədə mühüm yerləşməsi ilə seçilir, o cümlədən bizim kimi kiçik ölkələrin ehtiyac duyduğu təbii qaz, bərpaolunan enerji baxımından çox maraqlı tərəfdaşa çevrilir", - deyə vurğulayıb.

Mətbuata bəyanatında Prezident İlham Əliyev diqqəti Azərbaycanla Şimali Makedoniya arasında enerji əməkdaşlığında son ayların uğurlarına diqqət çəkib. Ötən ilin sonlarından başlayaraq Azərbaycan qazı artıq Şimali Makedoniyanın bazarına çatdırılıb. Cari ildə bu təchizat müntəzəm qaydada davam etdiriləcək. Prezident İlham Əliyev bildirib ki, gələcəkdə biz lazım olan həcmdə qaz təchizatını artıra bilərik. Çünki biz bu gün yeni qaz yataqlarının istismara verilməsi istiqamətində fəal iş aparırıq. "Bildirməliyəm ki, hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bizim müştərilərimizin coğrafi yerləşməsi də Avrasiya məkanını əhatə edir. On iki ölkədən 10 ölkə Avropa ölkəsidir. Keçən il Azərbaycan xarici bazarları 25 milyard kubmetr qaz ilə təchiz etmişdir. Təbii ki, bizim istehsalımız bundan daha çoxdur. Çünki biz yerli tələbatı da ödəyirik. Ancaq əhatə dairəsi, qaz təchizatımızın coğrafiyasının genişləndirilməsi də gündəlikdə duran məsələdir. Avropa Azərbaycan qazına ehtiyac duyur. Təxminən üç il bundan əvvəl Bakıda imzalanmış Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq Bəyannaməsi bunun əyani təzahürüdür. Bu gün Azərbaycan qazı bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini təmin edir və Avropadakı tərəfdaşlarımızın xahişlərinə biz hər zaman böyük diqqətlə yanaşmışıq. Yəni, energetika sahəsində ikitərəfli formatda əməkdaşlıq bizim üçün çox önəmlidir və mən ümid edirəm ki, bu praktiki əməkdaşlıq digər sahələrdə də əməkdaşlığa gətirib çıxaracaq", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Oxşar inkişaf proseslərindən keçən iki dövlət

Qədim tarixə malik olan makedoniyalılar müxtəlif imperiyaların tərkibində yaşasalar da, milli düşüncələrini itirməyərək, 1990-cı illərdə dünyada baş verən geosiyasi dəyişiklərdən istifadə edərək müstəqilliklərini qazandılar. Yuqoslaviyanın dağılması ilə müstəqillik əldə edən Şimali Makedoniya ilə Azərbaycanın yeni tarixində bənzər məqamlar çoxdur. Hər iki dövlət imperialist siyasətin qurbanı olmuş və SSRİ-nin dağılmasından sonra müstəqillik qazanaraq inkişaf mərhələsinə qədəm qoymuşlar.



Oxşar tariximiz və inkişaf prosesləri, eyni zamanda, Azərbaycanın karbohidrogen ehtiyatları dövlətlərimiz arasındakı əlaqələrin inkişafı zərurətini meydana çıxarıb. Azərbaycan ilə Şimali Makedoniya arasında diplomatik münasibətlər 1995-ci ilin iyununda qurulub. Həmin ildə Azərbaycan Şimali Makedoniyanın müstəqilliyini tanıyıb. 2023-cü ildə Azərbaycanın Serbiyadakı səfiri, eyni zamanda, Şimali Makedoniyaya təyin olunub. Azərbaycan Şimali Makedoniya ilə münasibətlərin inkişafına əhəmiyyət verir və iki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir.

Şimali Makedoniya Respublikasının keçmiş prezidenti Qeorqe İvanov 2015, 2016, 2017 və 2018-ci illərdə müxtəlif tədbirlərdə iştirak etmək üçün Azərbaycana işgüzar səfərlər edib. Həmin səfərlər zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən görüşlərdə regional əməkdaşlıq məsələləri müzakirə edilib. Hazırkı Prezident Qordana Silyanovska-Davkova respublikamızda ilk dəfə 2024-cü ilin noyabr ayında səfərdə olub. Prezident İlham Əliyev Şimali Makedoniyanın dövlət başçısının COP29 konfransında fəal iştirakını və konfransın uğurla keçirilməsinə öz töhfəsini vermisini xüsusi vurğulayıb. Noyabr ayında görüş əsnasında dövlətimizin başçısı xanım Prezidenti respublikamıza səfərə dəvət edib və dəvət məmnuniyyətlə qəbul olunub.

Digər səviyyələrdə də əlaqələr yüksək dinamika ilə inkişaf edir. 2000-ci ildə Şimali Makedoniya və Azərbaycan parlamentlərarası işçi qrupu yaradıb və bu qrup hazırda uğurla fəaliyyət göstərir. Cari ilin fevralında Almaniyada keçirilən Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın xarici içlər naziri Ceyhun Bayramovla Şimali Makedoniyanın xarici işlər naziri Timko Muçunski arasında görüş olub. Bu görüşdə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişafı perspektivləri müzakirə edilib.

Bütün bunları nəzərə alaraq əminliklə söyləyə bilərik ki, Şimali Makedoniya Prezidenti Qordana Silyonovska-Davkovanın Azərbaycana rəsmi səfəri yaxın zamanlarda Bakı ilə Skopye arasında ikitərəfli münasibətlərin daha da inkişaf edəcəyini şərtləndirəcək.

***Mübariz ABDULLAYEV***

# Davamlı sosial dəstək

## Mənzillə təmin edilən hərbi qulluqçuların sayı 4167 nəfərə çatıb

Azərbaycanda hərbçilərə dövlətin əhatəli dəstək tədbirləri davam etməkdədir. Bu günlərdə Azərbaycan Ordusunun bir neçə hərbi qulluqçusunun mənzillə təmin edilməsi onların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində yürüdülən siyasətin tərkib hissəsi kimi dəyərləndirilə bilər. Belə ki, hərbçilərin mənzil təminatı üzrə yaradılmış Komissiyanın martın 11-də keçirilən iclasında Bakı və Sumqayıt şəhərlərində alınmış tam təmirli 131 mənzil hərbi qulluqçulara verilib. Beləliklə, dövlət vəsaiti hesabına mənzil alan hərbçilərin sayı 4167 nəfərə çatıb.

Qeyd edək ki, hərbçilərin mənzillə təminatı dövlət başçısının "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 28 dekabr 2011-ci il tarixli Fərmanı əsasında yaradılmış Komissiyanın qərarları ilə həyata keçirilir. Müəyyən edilmiş meyarlara əsasən, Azərbaycan Ordusunda 20 il və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuları növbəliliklə ardıcıl olaraq mənzillərlə təmin olunur. Komissiya tərəfindən Müdafiə Nazirliyinin təqdim etdiyi siyahılar əsasında mənzil növbəsinə mütəmadi baxılır və vaxtaşırı mənzil almaq hüququ qazanan hərbi qulluqçular mənzil növbəsinə əlavə edilir. Hər il yüzlərlə hərbçi dövlətin bu, mühüm sosial proqramından bəhrələnir.

## Hərbi qulluqçuların maaşları 20 faiz artırılıb

Hərbçilərə dövlətin sosial qayğı siyasəti davamlı xarakter daşıyır və bundan sonra da hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, dövlət vəsaiti hesabına mənzillə təmin edilməsi prosesi həyata keçiriləcək. Onların mənzil-məişət şəraiti ilə yanaşı, sosial təminatı da davamlı olaraq yaxşılaşdırılır, dövlət büdcəsinin imkanları hesabına onların əməkhaqları və təqaüdləri artırılır. 2025-ci ildən start verilmiş yeni sosial islahat paketinə uyğun olaraq, Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət keçən qulluqçularının aylıq vəzifə maaşları yanvar ayının 1-dən artırılıb. Eləcə də bir sıra dövlət orqanlarında xüsusi hərbi rütbəsi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə maaşlarında artımlar edilib, Müdafiə Nazirliyinin mülki işçilərinin də aylıq vəzifə maaşları 20 faiz artırılıb.

Ümumiyyətlə, büdcənin sosial xərclərinin strukturunda hərbi qulluqçuların sosial təminatı başlıca yerlərdən birini tutur, onların əməkhaqları, pensiya və təqaüdlərinin artırılması istiqamətində ardıcıl addımlar atılır, aylıq vəzifə maaşlarına müəyyən edilən müddəti əlavələr ödənilir.

## Xüsusi güzəştli ipoteka imkanları genişləndirilir

Hərbi qulluqçulara şamil edilən sosial tədbirlərin daha bir təzahürü onların güzəştli ipoteka proqramında daha öncül qaydada yararlanmasıdır. Dövlət onlara bir sıra güzəştlər verməklə yanaşı, İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına güzəştli şərtlərlə ev alan zabit və gizirlərin kreditinin faizini özü qarşılayır ki, bu da sosial qayğının daha bir nüminəsidir. Ötən il Prezident İlham Əliyevim imzaladığı müvafiq fərmana əsasən, "Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası" təsdiq edilib. Yeni qaydalar xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara İpoteka və Kredit Zəmanət Fondu tərəfindən verilən güzəştli ipoteka kreditlərinə dövlət dəstəyini əhatə edir. Belə ki, fərmanın müddəalarına əsasən, ipoteka krediti ilə ev alan xüsusi təyinatlıların aylıq kredit ödənişinin yarısını dövlət ödəyəcək. Bundan başqa, xüsusi təyinatlılar ipoteka krediti götürərkən ilkin ödənişi də dövlət edəcək, gələcəkdə isə xüsusi təyinatlılara krediti bağlamaq üçün daha bir dəfə maddi dəstək veriləcək.

Həmçinin dövlət başçısının 2018-ci il 1 may tarixli fərmanı ilə təsdiq olunmuş "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnamə"yə edilmiş dəyişikliklərə əsasən, Müdafiə Nazirliyi hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi imkanlarının daha da yaxşılaşdırılması nəzərdə tutulub. Qaydalara əsasən, Milli Müdafiə Universitetinin tabeliyindəki Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsində, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursunda, Bakı Hərbi Kollecində, Gəncə Hərbi Kollecində və Naxçıvan Hərbi Kollecində təhsil almış hərbi quluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstəriləcək. Onların mənzil təminatının həlli üçün İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditləşməsi həyata keçiriləcək.

## Hərbçilərin aylıq kreditinin 50 faizini dövlət ödəyir



Dövlətin ipoteka güzəştlərindən 2024-2025-ci tədris ilindən başlayaraq dövlətlərarası müqavilə əsasında xarici ölkələrin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir kimi həqiqi hərbi xidmət keçən Azərbaycan hərbi qulluqçuları da istifadə edə biləcəklər. Xarici ölkələrin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən ölkə vətəndaşları olan bütün hərbi qulluqçulara bu güzəştlər şamil olunacaq. Nəticədə güzəştli ipoteka ilə əhatə olunan hərbçilərin sayı daha da artmış olacaq.

Maliyyə dəstəyi güzəştli ipoteka kreditinin verildiyi tarixə ipoteka ilə yüklü edilən yaşayış sahəsinin qiymətinin bir hissəsi və aylıq annuitet ödənişlərinin bir hissəsi üzrə yalnız bir yaşayış sahəsinin satın alınması məqsədilə müddəti azı 15 il olan güzəştli ipoteka kreditləri üzrə göstəriləcək. Yəni, hərbçilər güzəştli ipoteka imkandan yalnız bir dəfə istifadə edə biləcəklər və bunun üçün kreditin müddəti 15 ildən artıq olmalıdır.

Dövlət ilkin ödənişi də tamamilə öz resursları hesabına qarşılayacaq. Belə ki, hərbçilərə ipotepka krediti götürəndə ilkin ödəniş dövlət tərəfindən ödənilməklə, həmin məbləğ alınan evin qiymətinin 15 faizi qədər olmalıdır. Yəni 100 min manat məbləğində alınan evin ilkin ödəniş limiti 15 min manatı keçməməlidir. Burada bir məqam var ki, bu da ipoteka siyasətində sonradan maliyyələşmə mexanizmi ilə tənzimlənəcək. Belə ki, hərbçi ev və ya mənzil alarkən ödədiyi ilkin ödənişi, tutalım ki, 15 min manatı özü birbaşa borc sahibinin hesabına köçrübsə, həmin vəsaiti sonradan dövlətdən geri ala biləcək. Çünki, həmin ödənişə dövlət özü zəmanət verir. Bundan başqa, hərbçilərin aylıq kreditlərinə də böyük güzəştlər nəzərdə tutulub. Onların aylıq kredit üzrə ödənişlərin 50 faizini dövlət ödəyəcək. Göründüyü kimi hərbçilərin sosial təminatının, mənzil şəraitinin yaxşılaşdırılması dövlətin yürütdüyü siyasətin ən prioritet istiqamətlərindən biri kimi hər zaman ön planda dayanır.

***E.CƏFƏRLİ***

# İnflyasiya riski gözlənilmir

**Mərkəzi Bankın (AMB) İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 7,25 faiz, eyni zamanda, müvafiq olaraq, faiz dəhlizinin aşağı həddi 6,25, yuxarı həddi isə 8,25 faiz səviyyəsində dəyişməz saxlanılıb. Yəni MB 2024-cü il dekabrın 18-də açıqladığı sonuncu qərarından sonra uçot siyasətində yenə də dəyişiklik etməyib. Uçot dərəcəsinin dəyişməz saxlanılması ilə bağlı qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəfdə (4±2 faiz) olması, inflyasiyanın daxili və xarici amillərinin dinamikası nəzərə alınmaqla qəbul olunub.**



## Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayıb

### Qlobal geosiyasi və iqtisadi proseslər qiymətlərə təsir edir

İnflyasiya proqnozları ilə bağlı fərz edilən dəhliz bir sıra xarici və daxili inflyasiya amillərinin dəyişməsindən asılı olaraq formalaşır. Burada əsas amillər kimi manatın nominal effektiv məzənnəsi, tərəfdaş ölkələrdə inflyasiya prosesləri və qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul və xidmətlərin tarifləri rol oynayır. Qiymət indeksində başlıca risk balansı isə tərəfdaş ölkələrdə inflyasiyanın və dünya bazarında əmtəə qiymətlərinin dəyişkənliyindən asılıdır. Aparıcı iqtisadiyyatlarda monetar şəraitin sərt olaraq qalması qlobal inflyasiyanı azaldacaq amillərdən biridir. İnflyasiyanı artıra biləcək başlıca daxili risk isə yerli xərc amilləri, eləcə də məcmu tələbin izafi artımı ilə əlaqədardır. Bu səbəbdən ortamüddətli dövrdə büdcə xərclərinin genişlənməsi və kredit aktivliyinin artması inflyasiyaya təsirlərini artıra bilər. Eyni zamanda, iqlim dəyişiklikləri və istehsal xərclərinin artımı kənd təsərrüfatı istehsal qiymətləri indeksi vasitəsilə inflyasiyaya təsir edə bilər.

### Xarici sektor göstəriciləri əlverişlidir



Mərkəzi Bankın açıqlamasından aydın olur ki, ötən iclasdan bəri (yanvar iclası) inflyasiyanın risk balansında əhəmiyyətli dəyişikliklər baş verməyib. Potensial inflyasiya təzyiqləri yarada biləcək qlobal risklərə mövcud geosiyasi gərginlik və ticarət müharibələri fonunda beynəlxalq əmtəə bazarlarında qiymətlərin mümkün dəyişkənliyi aiddir. Yüksək qlobal qeyri-müəyyənlik, xüsusən də bəzi ölkələrdə milli valyutaların məzənnələrindəki dəyişikliklərin və tarif artımlarının inflyasiya proseslərinə təsirlərinin qiymətləndirilməsi üçün faiz dəhlizi parametrlərinin dəyişdirilməsində pauzanın götürülməsi zərurəti yaranır. İnflyasiyanı artıra biləcək daxili risk faktorları kimi isə xərc amillərinin aktivləşməsi və məcmu tələbin izafi artımı qeyd oluna bilər. Həmçinin kredit aktivliyinin qiymət sabitliyinə mümkün təsirləri daim izlənilir.

Xarici sektor göstəriciləri də əlverişli olaraq qalır. 2024-cü ildə tədiyə balansının cari əməliyyatlar balansının profisiti 4,7 milyard dollar və ya ÜDM-in 6,3 faizini təşkil edib. 2025-ci ilin yanvar ayında xarici ticarət balansında 1 milyard dollar məbləğində müsbət saldo qeydə alınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40,5 çoxdur. Həmçinin pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyindəki dəyişikliklər nəzərə alınmaqla tətbiq olunur. Cari ildə pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi işləri də davam etdirilir.



### Beynəlxalq institutlar nə deyir?

İnflyasiya ilə bağlı beynəlxalq institutların gözləntiləri də sabit dəhliz çərçivəsinin qorunub saxlanılacağından xəbər verir. "S&P Global" (S&P) beynəlxalq reytinq agentliyi 2025-ci ildə Azərbaycanda orta illik inflyasiyanın 4 faiz səviyyəsində olacağını proqnozlaşdırır. Təşkilatın dünya ölkələrində qiymət indeksi ilə bağlı yeni hesabat sənədində qlobal inflyasiya göstəricisinin cüzi artacağına dair ehtimallar əksini tapıb. "S&P"nin proqnozlarına görə, ölkəmizdə inflyasiya cari ilin sonunda azalmağa doğru istiqamətlənəcək, 2026-cı ildə isə bu rəqəm 3 faizə düşəcək.

Digər beynəlxalq maliyyə institutlarının gözləntiləri də təxminən eynidir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycanla bağlı inflyasiya gözləntiləri cari il üzrə 3,6 faiz, 2026-cı il üzrə isə 3,1 faizə bərabərdir. Niderlandın "ING Group"unun apardığı qiymətləndirmədə isə ölkəmizdə istehlak qiymətlərinin 2025-ci ildə 4,8 faiz, 2026-cı ildə isə 4,7 faiz olacağına dair ehtimallar yer alıb.

İqtisadiyyat Nazirliyinin proqnozlarında isə ölkəmizdə illik inflyasiyanı 2025-ci ildə 4,6 faiz, 2026-cı ildə 4 faiz səviyyəsində olacağı fərz edilir.

Mövcud pul siyasəti inflyasiyanın hədəf diapazonu daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşməsinə yönəlib. Mövcud siyasət çərçivəsində baza ssenari üzrə 2025-ci və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozu dəyişməz qalır. Bütün bu sabit gözləntilərə baxmayaraq, inflyasiya ilə mübarizə tədbirləri prioritet faktor kimi diqqətdə saxlanılacaq və iqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumlar bu prosesə cəlb ediləcək.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarlar faktiki və proqnozlaşdırılan inflyasiya, xarici və daxili risk amillərinin dinamikasından asılı olacaqd. Mərkəzi

### Anti-inflyasiya tədbirləri diqqətdə saxlanılacaq

Bank öz mandatına uyğun olaraq qarşıdakı aylarda da qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə edəcək. Faktiki və proqnozlaşdırılan inflyasiyanın azalacağı təqdirdə faiz dəhlizi parametrlərinin azaldılması imkanları nəzərdən keçirilə bilər. Bununla yanaşı, MB inflyasiya risklərinin reallaşması halında adekvat reaksiya verəcək. Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar barədə məlumat aprel ayının 23-də ictimaiyyətə açıqlanacaq və bununla bağlı mətbuat konfransı keçiriləcək.

***E.CƏFƏRLİ***

# Hər kəs əməlinin məsuliyyətini daşımalıdır

## Azərbaycanla təzyiq dili ilə danışmaq olmaz!

**Azərbaycan dövlətinə və xalqına qarşı cinayət törətmiş bir qrup erməni əsilli şəxslər ədalət mühakiməsi qarşısına çıxarılıb. Bir müddətdir ki, Bakıda onların məhkəməsi davam edir və məhkəmə prosesi şəffaf keçirilir.**

**Nə qədər absurd olsa da, həm Ermənistan, həm də xaricdəki erməni lobbisi bu məsələ ilə bağlı dezinformasiya yayır, konkret cinayətlərdə ittiham olunan şəxslərin mühakimədən yayıdırılması üçün fərqli yollara əl atırlar. Məqsəd isə Azərbaycana beynəlxalq təzyiq göstərmək və bəlkə bu təzyiq yolu ilə onların azad edilməsinə çalışmaqdır. Amma bütün bunlar əbəsdir. Çünki bu gün güclü Azərbaycanla təzyiq dili ilə danışmaq mümkün deyil.**

### Absurd "bəyanat" və ona cavab...

Yeri gəlmişkən, bir neçə gün öncə İsveç-Ermənistan parlament dostluq qrupu da erməni cinayətkarların Bakıda keçirilən məhkəməsi ilə bağlı absurd bəyanat qəbul etmişdi. Bəyanatda həmin cinayətkarların azad edilməsi üçün "təcili beynəlxalq tədbirlərin görülməsi" üçün çağırış olunur. Lakin onların sözügedən "bəyanatı" cavabsız qalmayıb. Milli Məclisin Azərbaycan-İsveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri İsveç parlamentində İsveç-Ermənistan dostluq qrupu üzvlərinə məktub göndərərək əsl həqiqətləri onların diqqətinə çatdırıblar. Məktubda bildirilib ki, saxta məlumatlar və yalan ittihamlar ilə dolu olan bu "bəyanat" reallığı təhrif etmək Azərbaycanın suverenliyini şübhə altına almaq, erməni separatçılarının və müharibə canilərinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətləri təmizə çıxarmaq üçün göstərilən rüsvayçı cəhddir. Qeyd olunub ki, beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycanın ağır cinayətlər, o cümlədən separatizm cinayətləri, sülh və insanlıq əleyhinə, müharibə cinayətləri, Azərbaycan dövlətinə və onun vətəndaşlarına qarşı terror aktları törətmiş şəxsləri təqib etməyə tam qanuni hüququ var. Ən əsası, müharibə canilərinin cəzasız qaldığı dövr artıq başa çatıb.



### Qərbi Azərbaycan İcması erməni cinayətkarları dəstəkləyənləri qınayıb



Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması da bəyanat verib. Bəyanatda qeyd olunub ki, insan hüquqları və humanitar hüququn bu miqyasda pozulması və törədilən misilsiz ədalətsizlik şübhəsiz ki, sülh və barışığın əldə edilməsinə ən böyük maneələrdən biri olub. Bu mənada azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə, eləcə də Xocalı, Qaradağlı, Ağdaban və digər yerlərdə törədilmiş kütləvi qətliamlara görə məsuliyyət daşıyanların bəzilərinin ədalət məhkəməsinin qarşısına çıxarılması haqq-ədalətin öz yerini tutması və davamlı sülhün əldə olunmasına böyük töhfədir. İcma təəssüflə bəyan edib ki, Ermənistan hökuməti və ölkənin aparıcı siyasi qüvvələri bu haqq işinə dəstək vermək və məhkəmə prosesinə yardım etmək əvəzinə, faktiki olaraq törədilmiş cinayətlərə haqq qazandıran və cəzasızlığı təşviq edən cəhdlər edirlər. Bu məsələdə bir sıra Avropa dövlətlərinin parlamentləri, beynəlxalq təşkilatlarda işləyən qeyri-dürüst funksionerlər və digər siyasi dairələr də fəallıq göstərirlər. "Ermənistan tərəfindən törədilən etnik təmizləmə, qətliamlar, mədəni irsin dağıdılması, öz evlərinə qayıdışa maneə törədilməsi kimi insanlıq əleyhinə cinayətlərdən əziyyət çəkən bir icma olaraq, biz Ermənistanın və onun havadarlarının bu cinayətlərə haqq qazandıran, ədalət məhkəməsinin müstəqilliyinə xələl gətirən, cəzasızlığı təşviq edən cəhdlərini sərt şəkildə qınayır və onlara son verilməsini tələb edirik",-deyə bəyanatda vurğulanıb.

### Şahidlər canilərin cinayətlərini sübutlarla ifşa edir

Ümumiyyətlə, Ermənistanın və xaricdəki müəyyən dairələrin erməni cinayətkarları müdafiə etməsi beynəlxalq hüququn pozulmasıdır. Nəzərə almaq lazımdır ki, məhkəməsi keçirilən şəxslər törətdikləri cinayətləri etiraf edirlər, əsl həqiqətlər üzə çıxır. Martın 11-də Ruben Vardanyanın məhkəməsində şahidlər onun cinayətlərini ifşa ediblər. Şahid qismində ifadə verən, Qarabağda yaşayan erməniəsilli şəxs Kamo Eduardoviç Hayrapetyan R.Vardanyanın sponsorluq edərək Azərbaycana qarşı vuruşmaq üçün yaşı 45-50-dək olan insanlardan ibarət dəstələr yaratdığını, onları maliyyələşdirdiyini bildirib. Eyni zamanda, Vardanyan Xankəndiyə gəldikdən sonra 44 günlük müharibədə Azərbaycanın qaytardığı ərazilərin sərhədlərində onun maliyyəsi ilə minalanma işləri aparılıb. Həmin minalar Laçın yolu ilə Ermənistandan Qarabağa gətirilib. Şahid deyib ki, R.Vardanyanın maliyyələşdirməsi nəticəsində Xankəndi ətrafında 2, Əsgəranda isə 1 ədəd olmaqla, ümumilikdə 3 hərbi anbar yaradılıb. Həmin anbarlarda Ermənistan ordusu, Qarabağdan seçilmiş hərbçilər fəaliyyət göstəriblər. R.Vardanyanın bu silahlı dəstələri yaratmaqda məqsədi Azərbaycana qarşı mübarizə aparmaq olub.

Digər erməniəsilli şahid Muşeq Qurgenoviç Qriqoryan da ifadəsində bildirib ki, R.Vardanyan Qarabağda qondarma rejimdə vəzifəyə təyin olunduqdan sonra muzdlu döyüşçülərdən ibarət dəstələr toplamağa başlayıb. Daha sonra isə həmin şəxslər Xocalı rayonunda yerləşən düşərgədə hərbi təlimlərə cəlb olunublar. Bütün bunlar məhkəməsi davam edən erməni əsilli şəxslərin cinayətlərinin təkzibolunmaz sübutlarıdır. Belə olan halda ittiham olunan şəxsləri müdafiə edən xarici qüvvələr də beynəlxalq hüquq qarşısında məsuliyyət daşımalıdırlar.

***Nardar BAYRAMLI***

# QƏRBİ AZƏRBAYCAN MƏTBUATI

1914-cü il fevral ayının 22-də İrəvanın tanınmış ziyalıları Mirzə Cabbar Əsgərzadənin redaktorluğu, Mirfətulla Mirfətullayevin naşirliyi ilə İrəvanda Azərbaycan dilində ilk mətbuat orqanı olan "Lək-lək"in birinci nömrəsi işıq üzü görür.

Bu məcmuə XX əsrin ikinci onilliyində Qərbi Azərbaycanda - İrəvanda 1914-cü il fevral ayının 22-dən həmin ilin 30 iyununadək nəşr olunmuş, cəmi 12 nömrəsi işıq üzü görmüş "Lək-lək", əslində, senzura sənədlərində "Leylək" jurnalının ərəb qrafikalı əlifbadan transliterasiyasıdır. "Lək-lək" "Molla Nəsrəddin" ədəbi məktəbi ənənələrini davam etdirmişdir. Jurnalın naşir və redaktoru Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadə olmuşdur. Jurnal İrəvandakı "Lyus" mətbəəsində çap edilmişdir.










Cəmi beş ay nəşr edilmiş "Lək-lək" məcmuəsi elə həmin ildə 1914-cü il iyun ayının 30-da özünün sonuncu - 12-ci nömrəsində bir sıra səbəblər üzündən bir daha çıxmayacağı və gələcəkdə daha mükəmməl, böyük həcmli jurnalla əvəz ediləcəyini elan etməsinə baxmayaraq, jurnal bir daha nəşr edilməmişdir. "Lək-lək" də "Molla Nəsrəddin" kimi səkkiz səhifəlikdir. "Lək-lək"in cəmi beş ay ərzində işıq üzü görən nömrələrini ardıcıl izlədikdə onun "Molla Nəsrəddin"in ideya və dəst-xəttinə sadiq qaldığı bir daha aydın olur.

"Lək-lək" satirik məcmuəsindən sonra İrəvanda "Bürhani-həqiqət" adlı məcmuə nəşr edilmişdir. Jurnalda Əli Məhzunun bir neçə satirik şeirləri də özünə yer tapmışdır. "Bürhani-həqiqət"in səhifələrində dərc olunmuş bu əsərlərdə mövcud dövrün problemlərinə, siyasi, sosial-mədəni hadisələrinə bədii sənət dili ilə münasibət bildirilmişdir. "Lək-lək" kimi "Bürhani-həqiqət"in də ömrü uzun sürməmişdi.



*Cəlal ALLAHVERDİYEV,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

Elə həmin ildə 1917-ci ilin iyun ayının 29-da cəmi 9 nömrəsi işıq üzü görən "Bürhani-həqiqət"in də fəaliyyəti dayandırıldı. "Bürhani-həqiqət" məcmuəsinin nəşri dayandıqdan sonra İrəvanda Azərbaycan mətbuatının olması haqqında professor Nazim Axundov "Azərbaycanda dövri mətbuat (1832-1920)" adlı biblioqrafik məlumat kitabında 1920-ci ildə İrəvanda "Cavanlar şurası" adlı qəzetin azərbaycanlı ziyalıların milli şurası tərəfindən nəşr olunduğunu qeyd edir. Tədqiqatçı-alim İsrafil Məmmədov isə İrəvanda "Cavanlar şurası" adlı mətbuat orqanının 1920-ci ildə deyil, 1917-ci ildə işıq üzü gördüyünü bildirir. İsrafil Məmmədovun "Cavanlar şurası"nın nəşri ilə bağlı verdiyi məlumat daha inandırıcıdır. Çünki 1918-1920-ci illərdə ermənilərin İrəvanda və eyni zamanda azərbaycanlılar yaşayan bölgələrdə soydaşlarımıza qarşı törətdikləri qətliamlar zamanı azərbaycanlı əhalinin bir qismi qətlə yetirilmiş, bir qismi isə qəddarcasına qətlə yetirilməkdən xilas olmaq üçün Azərbaycana və müxtəlif ölkələrə köçməyə məcbur olmuşdular. 1918-1920-ci ildə İrəvanda və eləcə də yerlərdə barmaqla sayıla biləcək qədər adam qalmamışdır. Bu baxımdan 1920-ci ildə İrəvanda "Cavanlar şurası" adlı qəzetin nəşr edilməsi həqiqəti əks etdirmir. Müəllif jurnalın bir neçə sayını əsərində geniş şəkildə təhlil edib. Bu təhlillərdən aydın olur ki, "Bürhani-həqiqət" oxucularını elmə, maarifə, yeniliyə, ədəb-ərkana sövq edən bir mətbuat orqanı olub. "Azərbaycan mətbuatı tarixində özünəməxsus yeri və rolu olan "Bürhani-həqiqət" jurnalı Azərbaycan Sovet Ensiklopediyasında dövrün ideologiyasına uyğun olaraq "dini ehkamları müdafiə edən ziddiyyətli, zərərli jurnal" kimi təqdim edilir.

Bütün respublikalarda olduğu kimi, Qərbi Azərbaycanda da ilk növbədə kommunist-bolşevik mətbuatı yaratmaq məsələsi zəruri idi. Bu səbəbdən də 1921-ci il yanvar ayının 7-də İrəvanda Azərbaycan dilində "Kommunist" qəzeti nəşr edilməyə başlandı. "Kommunist" qəzeti 1921-ci il yanvar ayının 7-dən fevral ayının 8-nə qədər nəşr olunmamışdır. Qəzetin redaktoru isə Həmid Qənizadə idi. 1921-ci il fevral ayının 9-da erməni daşnakları İrəvanda yenidən tüğyan edərək terror, qətliamlar və total qırğınlar, dağıntılar törədərkən Azərbaycan dilinə nəşr olunan "Kommunist" qəzetinin redaksiyasını yandıraraq məhv etmişlər. Bununla da qəzetin fəaliyyəti dayandırılmışdır. "Zəngi" qəzeti nəşr olunmasının iki illiyi münasibəti ilə dərc etdiyi "İki bayram" adlı redaksiya məqaləsində yazır: "İrəvanda həftəlik türkcə "Kommunist" qəzetəsi nəşrinə başlandı. Qəzetə bir neçə ay davam etdikdən sonra bir para səbəblərə görə qapandı və bir neçə ay sonra "Rəncbər" qəzetəsi nəşrinə başlandı. O da bir neçə ay davam etdikdən sonra qapandı". 1921-ci il iyul ayının 22-də "Rəncbər" qəzetinin ilk nömrəsi işıq üzü görmüşdür. Qəzetin nəşri Qərbi Azərbaycanda soydaşlarımız arasında geniş əks-sədaya səbəb olmuşdur. "Rəncbər" qəzetinin ilk sayında onun məqsəd və vəzifələri, bu vəzifələrin yerinə yetirilməsi, partiya, sovet, komsomol təşkilatlarının, bütün zəhmətkeşlərin və ziyalıların qəzetə yaxından kömək göstərmələri, rəhbər işçilərin, fəhlə və kəndlilərin rəy və arzuları, bölgələrdən qısa məlumatlar, respublika xəbərləri və bir neçə xarici xəbərlər dərc olunmuşdu. Qəzetin Azərbaycandakı arxivlərdə heç bir nüsxəsi qorunub saxlanmamışdır. Moskvadakı Mərkəzi kitabxanada bütün nömrələri olmasa da, 1-3, 46-55 və 78-ci nömrələri dövrü mətbuat fondunda mühafizə olunur. "Rəncbər" qəzetinin əldə etdiyimiz həmin nömrələri bu mətbu orqanla bağlı elmi dövriyyəyə daxil edilmiş bir sıra yanlış məlumatların dəqiqləşdirilməsinə aydınlıq gətirmiş oldu. Bütün mənbələrdə "Rəncbər" qəzetinin 1922-ci ildə nəşr edildiyi göstərilir və bu məlumatlar onun nəşri tarixi ilə bağlı həqiqəti əks etdirmir. Qəzetin ilk nömrəsi 1921-ci il 22 iyul tarixində çap olunmuşdur. 1923-cü ilin ortalarında "Rəncbər" qəzetinin də fəaliyyəti dayandırılır və bununla da azərbaycanlı əhali yenidən anadilli mətbuat orqanından məhrum edilir.

1924-cü ildə "Zəngi" qəzeti nəşr olundu. "Zəngi" qəzetinin nəşrinin icazə verilməsinə baxmayaraq, onun işıq üzü görməsi heç də asan olmamışdır. Qəzetin nəşrini təmin etmək üçün mətbəə, şrift, bir sıra texniki avadanlıqların əldə olunması, işçi qüvvəsinin toplanması, məqalə yazmaq və s. bu kimi meydana gələn problemlərin həll edilməsi günün təxirəsalınmaz ən vacib məsələlərindən idi. Mətbəədə texniki və mütəxəssis çatışmazlığına baxmayaraq, "Zəngi" qəzetinin iki səhifədə ibarət birinci nömrəsi nəzərdə tutulduğu vaxtda, Bala Əfəndiyevin redaktorluğu ilə 29 noyabr 1924-cü ildə işıq üzü görür. Qəzetin ilk və sonrakı bir neçə nömrəsi Bala Əfəndiyevin, Mustafa Hüseynovun, Əkbər Rizayevin, Murtuza Muradovun böyük səyi və əzmkarlığı ilə araya-ərsəyə gəlmişdir. Onlar bütün qüvvə və bacarıqlarını "Zəngi" qəzetinin vaxtlı-vaxtında, yüksək keyfiyyətlə çıxmasına sərf edirdilər.

Bütün bunlara baxmayaraq, "Zəngi" qəzeti erməni şovinist dairələri tərəfindən məqsədli şəkildə yaradılan problemlərlə üzləşməli olurdu. Qəzetin redaksiyasının binası olmadığından ilk vaxtlar EK (b) P MK-nın nəzdində yaradılmış "Azsaylı xalqlar şöbəsi"nin idarəsində darısqal bir otaqda yerləşirdi. Redaksiyanın daimi binası olmadığı üçün ünvanlar tez-tez dəyişir, kağız problemi ortaya çıxır, həm də onun abunəçi məsələsi çox vaxt probleme çevrilirdi. "Zəngi" qəzetinin bütün bölgələrdə - Ağbabada, Basarkeçərdə, Zəngibasarda, Üçmüəzzində, Vedibasarda, Qaraqoyunluda və digər bölgələrdə müxbir məntəqələri fəaliyyət göstərirdi. Redaktordan tutmuş mürəttibə kimi hamı fədakarlıqla çalışır, əlindən gələni edirdilər ki, qəzet müntəzəm nəşr olunsun. Bunun üçün redaksiya heyəti Bakı, Naxçıvan, Şəki və başqa şəhərlərdən də abunəçilər cəlb edirdi. "Zəngi" qəzeti "Həlli çatmış məsələ" rubrikası adı altında "Şərq qapısı" (Naxçıvan), "Şəki fəhləsi" (Şəki) qəzetlərinin işi haqqında və onların məqalələrini təkrar verirdi. Hər üç qəzet "Gənclər səhifəsi" açaraq bir-biri ilə əlaqə yaradırdılar. Yuxarıda adlarını qeyd etdiyimiz bu mərkəzi mətbuat orqanları sonralar "Qızıl şəfəq", "Kommunist" və "Sovet Ermənistanı" qəzeti adı ilə nəşr olunmuşdur.

Azərbaycan mətbuat tarixində silinməz iz qoyan "Sovet Ermənistanı" qəzetinə müxtəlif vaxtlarda Rza Vəlibəyov, Cəfər Vəlibəyov, Rəhim Allahverdiyev, Salman Rəhimov, Həbib Həsənov, Məhərrəm Bayramov, İsrafil Məmmədov, Cahangir Əliyev, Zərbəli Qurbanov redaktorluq etmişlər. Bu mətbu orqanda şair, publisist, ictimai xadim Hidayət Orucov, Lətif Hüseynov, Cümşüd Sultanov, Rza Əsgərov, Əsgər Əsgərov, Nəcəf Şabanov, Nüsrət Sadıqov, Teymur Əhmədov, Tapdıq Novruzov Sabir Əsədov, Allahyar Rəhimov, Vidadi Quliyev, Ramiz Məşədihəsənli, və bu kimi başqa peşəkar jurnalistlər çalışmışdır.

Azərbaycan mətbuat salnaməsinin ayrılmaz parçası olan, İrəvanda nəşr edilən mətbu orqanların tarixinin daha dərindən araşdırılması mətbuat və mətbuatşünaslıq tariximizin zənginləşməsinə xidmət edir.

# Ekologiyanın qorunması üçün...

## Müasir dövrün ən mühüm probleminin həlli istiqamətində uğurlu addımlar atılır

Bütün dünyada aktual olan iqlim dəyişmələri ilə bağlı müzakirələr ölkəmiz üçün də mühüm prioritet təşkil edir. Bu istiqamətdə addımlar atılır, qərarlar qəbul olunur. Qlobal istiləşmə və güclü sənaye inkişafı fonunda iqlim dəyişmələrindən bütün ölkələr təsirlənir. Bundan başqa, XXI əsrdə ekoloji tarazlığı qoruyub saxlamaq, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosferi çirklənməkdən mühafizə etmək ümumbəşəri problemə çevrilib. Bir tərəfdən dünya demoqrafik artımla "qol-boyun"dur, digər tərəfdən də qlobal istiləşmə, ozon qatının deşilməsi, təbii ehtiyatların tükənməsi kimi məsələlər ciddi narahatlıq yaradır.

Statistik rəqəmlərə əsaslanaraq söyləmək olar ki, dünyada hər il minlərlə hektar meşə və çəmənlik, bitki örtüyü ilə zəngin yaşıllıqlar məhv edilir. Meşələrin məhv olması Yer kürəsinin münbit qatı hesab olunan torpağın şoranlaşmasına, eroziyaya uğramasına, sürüşmələrin baş verməsinə səbəb olur ki, bu da böyük dağıntılar və fəlakətlərlə nəticələnir.

### Dövlət siyasətinin prioritetlərindən biri

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Naqif Həmzəyev bildirib ki, ekoloji məsələlər ümumbəşəri problem kimi qəbul olunur və hazırda bütün dünyada ekologiyanın mühafizəsi ən aktual məsələ olaraq qalır: "Sözügedən problemlərin həlli üçün ekoloji siyasətin işlənib hazırlanması, tətbiqi vacibdir və hər bir dövlətin özünün ekoloji siyasəti mövcuddur. Azərbaycanda müstəqilliyin bərpasından sonra ətraf mühitin qorunması dövlət siyasətinin prioritetlərindən birinə çevrilib və Prezident İlham Əliyevin bu məsələni xüsusi diqqət mərkəzində saxlaması bunu təsdiqləyir. Ölkəmizdə ekologiyanın qorunması, ətraf mühitin mühafizəsi istiqamətində mütəmadi olaraq tədbirlər planı həyata keçirilir ki, bu da ekologiyanın, ətraf mühitin mühafizəsi sahəsində qarşıya qoyulan məqsədlərin uğurla reallaşmasını şərtləndirir. İstər yaşıllıq sahələrinin salınması, həmin ərazilərin daha da genişləndirilməsi, istərsə də milli parkların ərazilərinin artırılması, eləcə də qorunması ekologiyanın mühafizəsi və bərpası baxımından müsbət nəticələr vəd edir".

### Mühüm nəticələrlə yadda qalan konfrans...

N.Həmzəyevin sözlərinə görə, ötən ilin noyabr ayında Azərbaycan COP29 kimi mötəbər beynəlxalq tədbirə uğurla ev sahibliyi etdi. Deputat cəmi 11 ay ərzində ölkəmizin böyük miqyaslı bir tədbirə çox yaxşı hazırlaşdığını və konfransın ciddi nəticələrlə yadda qaldığını bildirib: "Bu konfransa qədər də Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində özünə yetərincə müsbət imic qazanmışdı. COP29 Azərbaycanın siyasi və iqtisadi gücünü artıran bir addım olaraq yadda qaldı. Konfransın təşkilində əldə edilən tarixi nailiyyətlər dövlətimiz üçün bu mötəbər tədbirin qlobal arenada daha geniş nüfuz qazanmaq, strateji hədəflərə çatmaq və ölkənin tanıdılması üçün müstəsna bir platforma olduğunu göstərdi".



### Görülən işlərin uğurlu nəticəsi

Deputat qeyd edib ki, son illər iqtisadiyyatımızın sürətli inkişafının nəticəsi olaraq artan gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi ekoloji layihələrin həyata keçirilməsi imkanlarını xeyli genişləndirib. Buna görə də bir çox ölkələr maliyyə böhranına məruz qaldıqları bir dövrdə Azərbaycanda infrastruktur layihələrin icrası davam etdirilib, ekoloji problemlərin həlli istiqamətində görülən tədbirlər ön planda olub: "Bütün bunların nəticəsidir ki, Azərbaycanda ekologiyanın qorunması və ətraf mühitin mühafizəsi istiqamətində görülən tədbirlər beynəlxalq təşkilatlar tərəfindən təqdir edilir. Belə ki, ABŞ-ın Yel və Kolumbiya Universitetləri tərəfindən 2016-ci ilin yanvar ayında Ekoloji Fəaliyyətin Effektivliyi İndeksi hazırlanıb. Qiymətləndirmə nəticələrinə əsasən ABŞ-ın Yel və Kolumbiya Universitetləri mövcud ekoloji vəziyyətə görə Azərbaycan dünya ölkələri arasında 100 ballıq qiymətləndirmə sistemi üzrə 31-cı sırada qərarlaşıb. Bununla da reytinq sıralanmasına görə Azərbaycan Yaponiya, Belçika, Hollandiya, İsrail kimi dünyanın bir sıra qabaqcıl və inkişaf etmiş ölkələrindən ön mövqe tutmuş olub. Ekoloji Fəaliyyətin Effektivliyi İndeksində meşələrlə bağlı istiqamətdə qiymətləndirmə üzrə isə Azərbaycan 180 ölkə arasında 5-ci yeri tutub.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti üzrə hazırlanmışdır**

Ancaq onu da etiraf etmək lazımdır ki, bu sahədə hələ də müəyyən problemlər qalmaqdadır. Lakin ölkəmizdə təbiətin mühafizəsi və ətraf mühitin çirklənməsinin qarşısının alınması məqsədi ilə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi böyük sosial-iqtisadi əhəmiyyət kəsb edir. Ona görə də bu sahədəki dövlət siyasəti hər zaman olduğu kimi yenə də uğurla davam etdiriləcək".

***Sahib***

# Ciddədən ciddi mesajlar...

## Təkliflər Moskvaya yönləndirilir

İki gün öncə Ciddədə keçirilən ABŞ-Ukrayna görüşü son günlərin əsas müzakirə predmetidir. Bir sıra beynəlxalq ekspertlər görüşün nəticəsini Avropada yeni dövrün başlanğıcı kimi qiymətləndirir. Hətta bir az da irəli gedərək Ukrayna müharibəsindən sonrakı mərhələni II Dünya müharibəsindən sonrakı dövrlə də müqayisə edənlər tapılır - onların əsas arqumenti isə odur ki, hazırkı mərhələ də 1945-ci ildən sonrakı mərhələnin bənzəridir.

Qeyd edək ki, görüşdə ABŞ-ı milli təhlükəsizlik müşaviri Mayk Vals və Dövlət katibi Marko Rubio təmsil edib. Ukrayna tərəfdən isə Ukrayna prezidenti ofisinin rəhbəri Andrey Yermak, xarici işlər naziri Andrey Sibiqa və müdafiə naziri Rüstəm Umarov Ciddə masasında əyləşiblər. Səudiyyə Ərəbistanının rəsmilərindən isə xarici işlər naziri Feysəl bin Fərhan və milli təhlükəsizlik üzrə müşavir Mosad bin Məhəmməd Əl-Ayban görüşdə iştirakçı qismində təmsil olunublar.

Maraqlıdır ki, əvvəlcə görüşdə ABŞ prezidentinin xüsusi elçisi Stiv Vitkoffun da iştirak edəcəyi bildirilsə də, amerikalı rəsmi görüşdə olmayıb. Amerika mətbuatının yazdığına görə, onun martın 13-də Rusiya prezidenti Vladimir Putinlə görüş üçün Moskvaya səfəri planlaşdırılır. Kreml bu informasiyanı nə təsdiq, nə də təkzib edib - Moskva Vitkoff ilə təmaslar barədə “vaxtında məlumat verəcəklərini” bildirib.



### Uzun çəkən görüş...

Vurğulayaq ki, Ciddə danışıqları fevralın 28-də baş verən hadisələrin ardından ABŞ və Ukrayna arasında ilk yüksək səviyyəli təmas kimi yadda qaldı. Xatırladaq ki, fevralın son günündə baş verənlərin ardından Birləşmiş Ştatlar Ukraynaya silah tədarükünü və kəşfiyyat məlumatları ilə təmin etməyi dayandırmışdı.

Uzun çəkən və iki rauntdan ibarət olan görüşdə Ukrayna prezidenti seçkilərinin keçirilməsi və ya Volodimir Zelenskinin istefası müzakirə olunmayıb. Bunu “Fox News”un jurnalisti Nana Sadjaya danışıqlarda iştirak edən mənbəyə istinadən bildirib. Görüşdən sonra Ukrayna ABŞ-ın 30 günlük atəşkəs təklifi ilə razılaşıb. Lakin bunun üçün əsas şərt Rusiyanın



da eyni anda və eyni şərtlərlə bu tələbi qəbul etməsi və yerinə yetirməsidir.

Danışıqlarda iştirak edən prezidentin milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts bildirib ki, ABŞ yaxın vaxtlarda Rusiya tərəfi ilə bunu müzakirə etmək niyyətindədir. ABŞ tərəfi isə yaxın günlərdə Moskva ilə Vaşinqton arasında yeni görüşün keçirilməsi anonsunu paylaşıb. Bundan əlavə, Vaşinqton hərbi təchizat və kəşfiyyat məlumatlarının mübadiləsini bərpa edəcəyinə söz verib.

### İkitərəfli bəyanata görə...



Görüşdən sonra yayılan ikitərəfli Bəyanatda, həmçinin atəşkəs dövründə humanitar səylərin vacib olduğu, xüsusən də müharibə əsirlərinin mübadiləsi, həbsdə olan mülki şəxslərin azad edilməsi və məcburi köçkün ukraynalı uşaqların geri qaytarılması vurğulanır. Tərəflər danışıqlar aparacaq qrupların tərkibini müəyyənləşdirəcək və dərhal davamlı sülhə nail olmaq üçün danışıqlara başlayacaqlar. Ukrayna Avropa ölkələrinin də sülh prosesinə cəlb edilməli olduğunu vurğulayıb. Bəyanata görə, Vaşinqton və Kiyev mineral ehtiyatlar üzrə saziş bağlamaq barədə razılığa gəliblər, lakin onun nə vaxt imzalanacağı barədə məlumat verilmir.

Dövlət katibi Rubio jurnalistlərə bildirib ki, Amerikanın təklifi Ukraynadan fərqli olaraq həm də quruda atəşkəsə nail olmaqdır. “Danışıqlara başlamazdan əvvəl bir-birinizə atəş açmağı dayandırmalısınız. Prezidentimizin istədiyi də bu idi və bu gün biz Ukrayna tərəfdən müvafiq öhdəlik aldıq, onlar buna hazır olduqlarını nümayiş etdirdilər”, - deyə o bildirib. ABŞ bu təklifi bir çox kanal vasitəsilə Rusiyaya çatdıracaq, müsbət cavab gözləyəcək.

### Moskva razılaşsa...

Ukrayna prezidenti Zelenski bildirib ki, Kiyev ABŞ-ın 30 günlük atəşkəs yaratmaq təklifinə razılıq verib, indi Vaşinqton Rusiyanı razı salmalıdır. Onun sözlərinə görə, Səudiyyə Ərəbistanında aparılan danışıqlarda Kiyev üç təklif irəli sürüb: “Səmada səssizlik”, “dənizdə səssizlik” və “məhbusların azad edilməsi”. Buna cavab olaraq, Zelenski qeyd edib ki, Amerika tərəfi ilk addımı daha da irəli atmağı və 30 gün ərzində suda, havada və bütün cəbhə xətti boyunca tam atəşkəs yaratmağa çalışmağı təklif edib. “Ukrayna bu təklifi qəbul edir, biz bunu müsbət hesab edirik, belə bir addım atmağa hazırıq. ABŞ Rusiyanı buna inandırmalıdır. Ruslar da razılaşsa, cəbhədə sükut olacaq”, - Ukrayna prezidenti bildirib.

### Qərb mətbuatı Rusiyanın mövqeyini belə qiymətləndirir...

Qərb mətbuatı isə yazır ki, Kreml Ukraynada hərbi əməliyyatlara son qoymaq üçün danışıqlarda güzəştə getmək niyyətində deyil. “Bloomberg”in məqaləsində bildirilib ki, Moskvanın güzəştə getməyəcəyi üç əsas məqam var. Bunlar hazırda nəzarətdə olan ərazilərin qaytarılmaması, Ukraynanın NATO-ya üzvlüyü məsələsi və Şimali Atlantika Alyansı əsgərlərinin mümkün sülhməramlı missiyada iştirakı. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Qərb kəşfiyyat orqanlarının agentliyə verdiyi qiymətləndirmənin şərh edərək, bunun reallığa uyğun olmadığını bildirib. Onun sözlərinə görə, danışıqların başlanması üçün məhz Ukrayna addımlar atmalıdır. Bundan əvvəl Vladimir Putin sülh danışıqlarına başlamaq üçün Ukrayna Silahlı Qüvvələrinin Luqansk, Donetsk, Zaporojye və Xerson vilayətlərindən tamamilə çıxarılmasını tələb edib. Kreml də dəfələrlə bəyan edib ki, sülh razılaşması əldə edildikdən sonra Avropa sülhməramlılarının Ukraynada olmasını qəbul etməyəcək.

### Beynəlxalq aləm dəstəkləyir...

Danışıqların nəticələri bütün dünyada maraqla izlənib. Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen və Aİ Şurasının sədri Antonio Kosta danışıqların Ukrayna üçün hərtərəfli, ədalətli və davamlı sülhə doğru bir addım ola biləcəyini deyib. Onlar bildiriblər ki, top artıq Rusiyanın meydanındadır”.

Öz növbəsində Almaniyanın xarici işlər naziri Annalena Berbok Səudiyyə Ərəbistanında keçirilən danışıqların nəticələrini şərh edərkən deyib ki, bu, Ukraynanın davamlı sülh və təhlükəsizlik axtarışında mühüm dönüş nöqtəsi ola bilər.

Böyük Britaniyanın Baş naziri Kir Starmer Ciddədə aparılan danışıqların nəticələrini yüksək qiymətləndirib. Fransa prezidenti Makron da Kiyevin ABŞ-ın təklifini qəbul etməyə və 30 günlük atəşkəs yaratmağa hazır olduğunu alqışlayıb. İtaliyanın Baş naziri Giorgia Meloni də analoji fikri ifadə edərək, danışıqların nəticələrini alqışladığını bildirib. Polşanın baş naziri Donald Tusk isə “X” sosial şəbəkəsində yazıb ki, əgər söhbət ədalətli və davamlı sülhün bərqərar olmasından gedirsə, Avropa bu səyləri dəstəkləməyə hazırdır.

*P.İSMAYILOV*

# Makronun niyyəti...



Parisdə Prezident Emmanuel Makronun rəhbərliyi ilə Avropa İttifaqı (Aİ) və NATO-ya üzv 30 ölkənin Baş Qərargah rəislərinin toplantısı keçirilib - toplantının əsas mövzusu Avropa qitəsinin müdafiəsi ilə bağlı olub. Görüşdə, həmçinin Ukraynanın gələcək təhlükəsizliyinə hərbi dəstəyin verilməsi və regional təhlükəsizlik arxitekturasına dair ortaq yanaşmalar, o cümlədən müdafiə-təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı məsələlər də müzakirə olunub. Qeyd edək ki, son zamanlar rəsmi Parisin Aİ-nin ABŞ-dan kənar müstəqil müdafiə-təhlükəsizlik strategiyasının formalaşması üçün yürütdüyü siyasət, habelə Makronun Fransanın nüvə silahı çəkindiriciliyinin Avropanın müdafiəsində rolunun artırılması ilə bağlı təklifi də xüsusi diqqət çəkir. Bir çox ekspertlərin fikrincə, Aİ-nin digər liderlərindən fərqli olaraq, Makronun bu kimi məsələlərdə özünü daha çox önə verməsi Parisin Avropanın müdafiə-təhlükəsizliyində liderlik etmək iddiasında olduğunu deməyə əsas verir.

## Fransa Aİ lideri olmaq istəyir

### Parisin təşəbbüsləri nəyə hesablanıb

Məsələ ilə bağlı politoloq Tofiq Abbasov “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, Makronun Avropanın təhlükəsizliyi ilə bağlı ambissiyaları Britaniyanın Avropa məkanında təsir imkanlarını məhdudlaşdırmağa yönəlib.

“İlk növbədə vurğulayım ki, Avropa İttifaqının üzv ölkələri hazırki proseslərə Ukraynadakı münaqişə prizmasından baxdığına görə çox böyük təşviş içərisindədirlər. Avropalılar üzləşdikləri vəziyyəti həddən artıq çox şişirdirlər. Avropada belə fikirlər səsləndirilir ki, guya Rusiya Ukraynada öz məqsədlərinə çatdıqdan sonra Avropaya hərbi müdaxilə edəcək və Avropa ölkələrinin təhlükəsizliyinə təhdid yaradacaq. Məhz bu qorxu səbəbindən avropalılar özlərinin müdafiəsi haqqında düşünməyə başlayıblar. Sözsüz ki, bu prosesin süni şəkildə qızışdırılmasında əsas əməyi olan, doğrusunu desək, avropalıları qorxu altına salan Fransanın dövlət rəhbəri Emmanuel Makrondur. Hesab edirəm ki, Makronun burada başlıca ambissiyası Avropanın təhlükəsizlik strategiyasının təmin etməkdən daha çox Britaniyanı Avropa və Ukraynada hazırda baş verən proseslərdən kənarlaşdırmaqdır. Qeyd edim ki, 2017-ci ildə Britaniya Aİ-nin üzvlüyündən çıxdıqdan sonra Parisdə düşünürdülər ki, qurumda əsas söz sahibi Fransa olacaq. Makron bunu reallaşdırmaq niyyətindədir. Bu istiqamətdə səylərini də artırıb. Britaniyanın Ukraynadakı proseslərdə həm diplomatik-siyasi, həm iqtisadi-maliyyə, həm də hərbi-təhlükəsizlik baxımından əhəmiyyətli



rol oynaması Parisi ciddi çəkildə narahat edir. Bu, Makronun ürəyincə deyil. Makron hakimiyyəti belə hesab edir ki, Britaniya Aİ üzvlüyündən çıxdığına görə Avropa və Ukraynadakı prosesləri kənardan müşahidə etməlidir və bu məsələlərdə açar rol Parisə məxsus olmalıdır”.

### Uğursuzluğa düçar olacaq siyasət

“Makron həm də qlobal proseslərə müdaxilə etməyə çalışır. Halbuki, Makronun qlobal siyasətə təsir edəcək qərarlar qəbul etmək üçün nə intellektual qabiliyyəti, nə də səriştəsi var. Bundan başqa, Fransa prezidenti ABŞ-Rusiya münasibətlərinə də müdaxilə etmək imkanlarını nəzərdən keçirir. Ümumiyyətlə, Makronun siyasi xətti Avropanı şantaj etmək xarakteri daşıyır. Yəni o, Avropa ölkələrini qorxudur ki, ABŞ Avropanı yalnız buraxacağı təqdirdə Rusiya bizim üstümüzə gələcək və bizim təhlükəsizliyimizə təhdid yaradacaq, yalnız Fransa bu təhlükələrin qarşısını almaq iqtidarındadır,” - deyə T.Abbasov əlavə edib.

### Ortaq anlaşma qeyri-mümkündür

Avropa İttifaqının müstəqil müdafiə-təhlükəsizlik strategiyasına gəlincə, T.Abbasov bunun mümkün olmayacağını bildirib: “Bu, Paris və Berlinin mövqeyindən asılı olacaq. Bunu yalnız zaman göstərəcək. Ancaq inanmıram ki, bu, baş tutsun. Yaxın on və ya on beş il ərzində Aİ-nin dağılacağını düşünürəm. Son proseslər onu göstərir ki, Aİ-nin hər bir üzv ölkəsi daha çox öz milli maraqları çərçivəsində siyasət yürütməyə çalışır. Bu da ümumi Avropa ideyası ilə ziddiyyət təşkil edir”.

*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Ramazan ayı: 13-cü günün duası

**"Allahummə təhhirni fihi minəd-dənəsi vəl-əqzar. Və səbbirni fihi əla kainatil-əqdar. Və vəffiqni fihi lit-tuqa və suhbətil-əbrar. Bi-ovnikə ya qurrətə eynil-məsakin".**

***Tərcüməsi:***

**"İlahi, bu gün məni günahların kəsafət və çirkinliyindən təmizlə! Qəzavü-qədərə uyğun bu gün baş verən hadisələrdə məni səbrli et! Bu gün məni təqvaya və yaxşı insanların söhbətinə müvəffəq et! Yardımına and verirəm, ey çarəsizlərin gözünün işığı".**

# Novruz ənənələri!

**Xalqımızın yaddaşından süzülüb gələn adət və ənənələr ən qiymətli sərvət kimi qorunub saxlanılmaqdadır. Çünki qloballaşan dünyada bir xalqın yaşaya bilməsi və özünü təsdiq etməsi üçün çox vacib amillərdən biri də, məhz milli mədəniyyətini qoruması və təbliğ etməsidir. Azərbaycanın milli adət-ənənələri, bayramları arasında Nobruz bayramı xüsusi əhəmiyyət daşıyır. Torpağın dirilməsi, təbiətin oyanması kimi qeyd edilən bu bayrama sayılı günlər qalıb. Maraqlıdır ki, Novruz bizim ümummilli bayramımız olsa da, fərqli regionlara xas adət ənənələri ilə də seçilir. Milli bayramımız müxtəlif bölgələrdə bir-birindən maraqlı və fərqli adətlərlə qeyd olunur.**



## Bölgələrimizdə bayramı necə qeyd edirlər?

### Bakı-Abşeron bölgəsi



Bakı mətbəxinin şirniyyatı da çeşidlidir. Bura paxlava, şəkərbura, qoğal, şərbətlər, səməni halvası və s. aiddir. Adətən bu nemətlərin hazırlanması yazın gəlməsi ilə qeyd olunan Novruz bayramı ilə üst-üstə düşür. Papaq atma, qapı pusma və s. adətlər də yerinə yetirilir.

Bayrama bir neçə gün qalmış evin yorğan-döşəyini, pal-paltarını bayıra töküb təmizləmək adəti xalqımızın təmizliklə bağlı inanclarındandır. Xalqda belə bir inam var ki, Novruzda il təzələndiyi kimi, hər şey təzələnməli, təmiz olmalıdır. Elə buna görə də bayram ərəfəsində hər bir uşağa təzə paltar alınır, uşaqlar bir dəsmalla, köynəklə, corabla da olsa sevindirilir.

### Gəncəbasar bölgəsi

Gəncə paxlavası respublikanın müxtəlif şəhər və rayonlarında adətən Novruz bayramı ərəfəsində, nişan və toy məclislərində hazırlanır. Gəncə paxlavası digər bölgələrdə bişirilən paxlavalardan öz ölçüsünə və ona əlavə edilən ədviyyatına görə fərqlənir. Gəncə paxlavası adətən mis məcməyidə, köz üzərində bişirilir və bir qədər böyük ölçüdə romb şəkilində kəsilir.

Novruz bayramında gəncəlilər mütləq evdən hansısa əşyanı bayıra atırlar.

### "Salahlı karnavalı"

Qazaxda səhər erkəndən qapı-qapı dolaşan kənd sakinləri gün boyu il ərzində dünyasını dəyişmiş insanların ailələrinə başsalığı verir, onların dərdinə şərik olur, həm də onları yasdan çıxarmaq üçün addımlar atırlar. Hüzr sahibləri isə ayaqüstü qapısına baş çəkib, dərdini bölüşən insanlara şirinlik paylayırlar.



Qazax rayonunun Yuxarı Salahlı kəndi isə bayramın qeyd edilməsi baxımından daha unikal bölgədir. Hələ sovet rejiminin adət-ənənələrimizə qadağalar qoyduğu dövrlərdə belə, öz adət-ənənələrinə sadiq qalan kənd sakinləri Novruzu müstəqillik dövründən daha canlı, daha maraqlı keçirib.

Gənc oğlanlar müxtəlif paltarlar geyinib, evlərə getməklə həm ev sahiblərini əyləndirir, həm də öz sevdikləri qızları yaxından görə bilirlər. Kəndin hər tərəfində alovlanan bayram tonqalları isə bu şölənə xüsusi gözəllik verir. Səhər saatlarına qədər davam edən "Salahlı karnavalı" görənləri təəccübləndirir.

### Qarabağ bölgəsi

Novruz bayramına bir ay qalmış geniş xalq kütləsi elliklə çillə çıxarmaq üçün şənliyə toplaşarlar. Vaxtilə Şuşada bu adət daha təmtəraqlı keçirilərdi. Burda köhnə ilin qəmini-qüssəsini köhnə ildə qoyub yeni ilə şadlıq aparmaq üçün əhali adəti üzrə çalıb oxumağa, rəqs etməyə üstünlük verərdi. Bu şənlik el bayramı olduğu üçün böyükdən kiçiyə kimi hamı bu məclisə yığılar, sözün əsl mənasında şadlıq edərdi. Şuşanın bütün ziyalıları, varlı və kasıb adamları, məşhur və qeyri-məşhur musiqiçilərinin hamısı bu şənlikdə iştirak edərdi.

### "Xan bəzəmə"

Naxçıvan bölgəsində bir neçə qədim adət qorunmaqdadır. Bunlardan biri də "Xan bəzəmə"dir. Novruzda muxtar respublikanın Ordubad rayonunda bayram ərəfəsində bir nəfər "xan" seçilir və o, üç gün əsl "xan" kimi geyindirilir, başına tac qoyulur. Meydanda hündür bir taxt düzəldib "xan"ı ora dəvət edirlər. İki nəfər balaca uşaq "xan"ı yelpiklə yelləyir. Kim istəyirsə, ona könüllü qulluqçu olur.

Qız-gəlinlər, qonaqlar meydanın dövrəsinə düzülüb tamaşa edirlər. "Xan"ın yanına bəzənmiş xonçalar, səmənilər düzürlər. "Xan"ın əmrinə hamı tabe olur. Hərə öz qabiliyyətini nümayiş etdirir. Arada "təlxəklər" gəlib "xan"ı güldürməyə çalışırlar. "Xan" isə gərək ciddiliyini qorusun, gülməsin. Əgər gülsə, onu hovuzdakı suya basırlar, sonra təzə "xan" seçirlər. Meydanda bir qab qoyurlar. Hamı ora xələt atır. Əgər "xan" üç gün vəzifəsinin öhdəsindən yaxşı gəlsə, bu xələtlər ona çatır.



### Lənkəran bölgəsi

Lənkəranda Novruz mərasimi əlahiddə bir gün olaraq deyil, bir-birinin davamı olan bayramlar halında qeyd edilir. Novruza, yeniliyə, oyanışa hazırlıq, nə qədər qəribə olsa da, hələ yayın sonundan, payızın əvvəllərindən başlanır. İnsanlar qışın ilk günü sayılan çillə gecəsinə tədarük görür, həmin günə çillə qarpızı və ağ boranı ehtiyatını görürlər. Həm çillə qarpızı, həm də ağ boranı əslində qışı və baharı simvolizə edir.

Bayram ərəfəsi suların arxlardan, xəndəklərdən sərbəst axması üçün həmin çərşənbədə kişilər əlinə bel, daraq alaraq otları, kolları təmizləyir, arxların, xəndəklərin gözünü açırlar. İnsanlar həmin çərşənbə günündə axar suya gedər, su ilə bağlı müxtəlif inamlar söyləyər, fallar açarlar. Şəhər mərkəzində tək-tək olsa da, Lənkəranın bir çox kəndlərində bu ayinlər kütləvi şəkildə icra olunmaqdadır. Su çərşənbəsinə "əzəl çərşənbə" də deyilir.

Lənkəranda adətdir ki, çərşənbə axşamı mütləq balıq, Novruz gecəsində isə toyuq yeyilsin. Nişanlı qızlar üçün bu nemətlər qabaqcadan qız evinə göndərilər.

### Şəki-Zaqatala bölgəsi

Novruz bu bölgədə özünəməxsus keçir. Hələ bayrama bir ay qalmış hazırlıq başlanır. Həyətlər təmizlənir, evlərin divarları rənglənir, ağaclar ağardılır, pal-paltar, xalça-palaz günə verilir.

Çərşənbələrdə tonqal qalanır, papaq atılır, qapı pusulur. Bölgə sakinlərinin çərşənbələrlə bağlı inancları var. Bir inanca görə, yazda birinci sel gələndə kim onun suyundan içərsə, bütün xəstəlikləri sağalar.

Bu bayram axşamında adamlar bir-birinə pay göndərir, əzizini itirənlər isə yasdan çıxır. Kəndlərdə camaat bir yerə yığışır, bayramı birgə keçirirlər. Qız-gəlinlər qulaq falına, uşaqlar papaqatdıya çıxırlar.

***Yeganə BAYRAMOVA***

## *İdman*

### Yeni transfer Mozambik yığmasında



"Zirə" klubunun yeni transferi Rikardo Martins Gimaraynş milliyə dəvət alıb. AZƏRTAC Afrika Futbol Konfederasiyasının rəsmi saytına istinadən xəbər verir ki, yarımmüdafiəçi Mozambik millisinin dünya çempionatının seçmə mərhələsinin oyunları üçün yığmaya çağırılıb.

Mozambik kollektivi martın 20-də Uqanda, 25-də isə Əlcəzairlə üz-üzə gələcək. 29 yaşlı oyunçu martın 16-da yığmanın düşərgəsinə qoşulacaq.

### Azərbaycan taekvondoçu dünya reytinqində mövqeyini qorudu

Dünya Taekvondosunun 2025-ci ilin mart ayı üçün reytinq siyahısı açıqlanıb. AZƏRTAC xəbər verir ki, "Paris-2024" Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı olan Azərbaycan təmsilçisi Qaşım Maqomedovun mövqeyində dəyişiklik olmayıb.

Avropa çempionu 124.32 xalla dünya reytinqinin ikinci pilləsində qərarlaşıb. İlk sırada isə Paris Olimpiadasının finalında idmançımızı məğlub edən Cənubi Koreya təmsilçisi Park Te Cun yer alıb.



### AİA-nın yeni loqosu təqdim edilib

Azərbaycan İdman Akademiyasının (AİA) yeni loqosunun təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdən öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətən uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Akademiyanın tədris üzrə prorektoru Ülkər Babayeva yeni loqonun modernləşmə və yenilənmə məqsədilə yaradıldığını bildirib. Onun sözlərinə görə, bu loqo özündə müasirliyi ehtiva edir.

Akademiyanın təsis olunduğu gündən indiyədək gördüyü işlərdən bəhs edən videoçarx nümayiş olunduqdan sonra yeni loqo ictimaiyyətə təqdim olunub.

Yeni loqonun dizayn qrupunun rəhbəri Şamil Ramazanov yaşıl rəngdə olan loqonun müasir standartlara cavab verdiyini, daha dinamik təsir bağışladığını söyləyib. O, loqodakı yaşıl xətlərin qaçış zolaqlarını əks etdirdiyini vurğulayıb.

Tədbirin sonunda AİA-nın rektoru Fuad Hacıyev akademiyanın fəaliyyətindən, tələbələrin beynəlxalq arenalarda əldə etdiyi nailiyyətlərdən danışıb. O, akademiyada təhsil alanların sayının ildən-ilə artmasını Azərbaycan gənclərinin idmana olan həvəsinin yüksək səviyyədə olması ilə əlaqələndirib.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4891
Sifariş: 558
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova